*Əli ƏLƏMİ*
*(AYB üzvü, Prezident mükafatçısı)*



# İncimə

Bu ahıl yaşımda durub qarşında,
Gülüm, öz-özümə gülsəm, incimə.
Demə, bir qara tel yoxdu başında,
Özümü hələ gənc bilsəm, incimə.

Baxıb, çox ah çəkmə yenə dərindən,
Ləzzət al, vəcdə gəl şeirlərimdən.
Saçına əl çəksəm, durub yerimdən,
Öpüb göz yaşını, silsəm, incimə.

Saxla xəyalında, unutma məni,
Yaşat xatirəmi, olub-keçəni.
Hərdən röyalarda görməyə səni
Gizlicə, xəbərsiz gəlsəm, incimə.

Bir eşq atəşiylə sinəm çatlayıb,
Desəm, Ələmiyə olarmı ayıb?
Doxsanı adlayıb, yüzü haxlayıb,
Vaxtından əgər tez ölsəm, incimə.
*30.06.2023*

# Bu kişi özüyçün diringi çalır

Deyəsən, qəlbinin ritmini tutub,
Bu kişi özüyçün diringi çalır.
"Üç badam, bir qoz" var, çoxu unudub,
Bu kişi özüyçün diringi çalır.

Bilir, zəmanənin nədir gərdişi,
Qaşqabaq sallamır, deyil vərdişi,
Gülümsəyir hərdən şirin, kişmişi,
Bu kişi özüyçün diringi çalır.

Yoxdur qarşısında o minagərdən,
Gözləri yumulur, bəs niyə hərdən?
Yaxşı xəbəri var gəldi-gedərdən,
Bu kişi özüyçün diringi çalır.

O qədər ağrı var, o qədər acı,
Dəyiş bu dünyanı, yoxdur əlacı,
Ya Rəbb, baxma ona, nolar, qıyğacı,
Bu kişi özüyçün diringi çalır.

Bu aləm dağılar ritmi olmasa,
Eşqi İlahidən ritmik almasa...
Soruş Ələmidən, zəhmət olmasa,
Bu kişi özüyçün diringi çalır?
*01.07.2023*

# Mənmi günahkaram, sənmi günahkar?

Sən oldun könlümün, ey gül, hakimi,
Qınama məni çox günahkar kimi,
Sındıra bilməzdim axı tilsimi!
Bu sevgi qalıbdır səndən yadigar,
Mənmi günahkaram, sənmi günahkar?

Ellərin qınağın sıyırıb, ataq,
O gözəl günaha bataq, hey bataq!
Şirin xəyallarda arzuya çataq?
Gülüm, haqq-ədalət varmı, harda var,
Sənmi günahkarsan, mənmi günahkar?

Hər an istədiyim o anlar hanı?
Özünlə apardın olan-qalanı.
Görəydim, kor olub, ayrı salanı!
Qucur, silkələyir məni arzular,
Sənmi günahkarsan, mənmi günahkar?

Ələmi sevgisi bir ayrı aləm,
Onu sındırmadı ayrılıq, ələm.
Ölsəm də, əzizim, səninçün ölləm!
Neynək, bizdə deyil hələ ixtiyar,
Sənmi günahkarsan, mənmi günahkar?
*02.07.2023*

# Yazıçı-publisist Arif Ərşada

Arif Ərşad, gəldim doğma şəhərə,
Verdiyin söz qüvvəsində qalırmı?
Söz verməzsən sən kimsəyə boş yerə,
Səni kimsə belə yada salırmı?

Sumqayıta gəldim, mənə təb gəlir,
Ruhum burda cavanlaşır, dincəlir,
Bakı ilə hərdən sözüm çəp gəlir...
Xatirələr saçlarını yolurmu?

Xatirələr dedim, bir az üzüldüm,
Qəhərlənib gözlərimdən süzüldüm,
Bir gözəlin sinəsinə düzüldüm,
Gözmuncuğu belə gözəl olurmu?

Arif Ərşad, Sumqayıt çox gözəldir,
İnsan ruhu, gör bir, nələr düzəldir!
"Sevgililər körpüsü" var, özəldir,
Sevgililər orda fikrə dalırmı?

Arif Ərşaqd, şirin yuxun çin olsun,
Belə yuxu, deyək ki, min-min olsun!
Adam gərək, həyatda nikbin olsun,
Açılmadan arzu-çiçək solurmu?

Arif Ərşad, düzdürmüsən kababı,
Şirin sözdür bu məclisin şərabı,
Vicdanındır, deyib, gözün hicabı,
Azər Saleh bizə şərab alırmı?

İkiniz bir - əmisinin balası,
Olacaqlar olasıdır, olası...
Sizdən ötə şəri-şeytan bəlası!
Ələmitək gözləriniz dolurmu?
*05.08.2023*

Azad Azərbaycan.- 2023- cü il.- 5 oktyabr.- S. 7.- №- 32